**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**"Təsdiq edirəm"**
**Bakı Slavyan Universitetinin rektoru**
**Anar Nağıyev**
**" 02 " MAY 2025-ci il**

# ELMİ- METODİKİ ŞURANIN ƏSASNAMƏSİ

*BSU Elmi Şurasının " 02 " may 2025-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (Protokol № 06 )*

**B A K I - 2025**

**1. Ümumi müddəalar.**

**1.1.** Bakı Slavyan Universitetinin (bundan sonra BSU) Elmi-metodiki Şurası (bundan sonra EMŞ) tədris prosesinin keyfiyyətini və onun elmi-metodiki təminatını yüksəltməyə xidmət edən, kollegial, istiqamətverici, məşvərətçi və daimi fəaliyyət göstərən orqandır.

**1.2.** EMŞ öz fəaliyyətində Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Elm haqqında" qanunlarına, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərinə və kollegiya qərarlarına, BSU-nun Nizamnaməsinə, BSU-nun Elmi Şurasının və Rektorunun qərar və əmrlərinə, həmçinin bu əsasnaməyə əsaslanır.

**1.3.** EMŞ-ın tərkibi BSU-nun Elmi Şurası tərəfindən açıq səsvermə yolu ilə, universitetin yüksək ixtisaslı professor-müəllim heyəti arasından seçilir. EMŞ-ya Tədris məsələləri üzrə prorektor rəhbərlik edir. Şuranın işinə Universitet Elmi Şurası nəzarət edir.

**1.4.** EMŞ-ın fəaliyyəti fakültə və kafedraların tədris prosesinin keyfiyyətini yüksəltmək üçün səylərin birləşdirilməsi, bu istiqamətdə səmərəli elmi-metodiki dəstəyin göstərilməsi və müvafiq tədbirlərin hazırlanması, fakültələrdə və kafedralarda planlaşdırılan elmi-metodiki işin müvafiq tələblər səviyyəsində icrasına nəzarətdən ibarətdir.

**1.5.** EMŞ-ın səahiyyət müddəti 5 ildir.

**1.6.** EMŞ İlk iclasında sədr müavini, iclas katibi seçir və illik fəaliyyət planını qəbul edir.

**1.7.** EMŞ-ın hər hansı bir üzvü BSU əməkdaşlarının sırasından çıxdıqda həmin şəxs EMŞ-ın tərkibindən xaric edilir.

**1.8.** EMŞ vəzifələrini yerinə yetirərkən BSU-nun rəhbər orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

**1.9.** Ehtiyac yarandığı zaman EMŞ-ın tərkibində müxtəlif komissiyalar yaradıla bilər.

**2. Elmi-metodiki Şuranın fəaliyyət istiqamətləri.**

**2.1.** Elmi -metodiki işin əsas istiqamətlərinin müvafiq fəaliyyət planlarında əks olunmaqla muəyyən edilməsi.

**2.2.** Elmi-metodiki işin koordinasiyası və ona nəzarət.

**2.3.** Elmi-metodiki işlə bağlı yaranan problemlərin həlli.

**2.4.** Elmi-metodiki işə cavabdeh olan struktur bolmələrə rəhbərlik.

**2.5.** Təcrubə mubadiləsinin təşkili və qabaqcıl təcrubənin tətbiqi.

**2.6.** Professor-muəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılması uzrə işin təşkili.

**2.7.** Aşağıda qeyd olunan istiqamətlər uzrə fakultələrdə təşkil olunmuş və fəaliyyət gostərən Elmi-metodiki qrupların işinin koordinasiyası və nəzarətinin həyata kecirilməsi:

**2.7.1.** BSU uzrə təhsil standartlarının muzakirəsi, mutəxəssis hazırlığı həyata kecirən butun ixtisas və ixtisaslaşmalar ucun tədris planlarının və fənn proqramlarının hazırlanması.

**2.7.2.** Fənn proqramlarının, sillabusların ekspertizasının kecirilməsi.

**2.7.3.** İnnovativ xarakterli texnologiyalardan istifadə daxil olmaqla tələbələrin peşə hazırlığına dair qabaqcıl təcrubənin oyrənilməsi, umumiləşdirilməsi və tətbiqi.

**2.7.4.** Tədris olunan fənlər uzrə tələbələrin akademik nailiyyətlərinin monitorinqinin yeni formalarının muzakirəsi, onların həyata kecirilməsi ucun tovsiyələrin hazırlanması.

**2.7.5.** Normativ huquqi aktların, yuxarı dovlət orqanlarından daxil olan təlimatların icrası ilə bağlı tədbirlərin muəyyən olunması, onların təşkili və icrasına nəzarət.

**2.7.6.** Tələbələrin sərbəst işlərinin planlaşdırılması və elmi-metodiki təminatı.

**2.7.7.** Ayrı-ayrı fənlərin tədrisi vəziyyətinin araşdırılması, təhlili, fənlərin metodiki təminat keyfiyyətinin qiymətləndirilməsi və gənc muəllimlərə metodiki dəstəyin gostərilməsi.

**2.7.8.** Secmə fənlərin muəyyən olunması, təhlil olunması və secilməsi mexanizminin daim təkmilləşdirilməsi uzrə təkliflərin hazırlanması.

**2.7.9.** Dərslərin dinlənilməsinin təşkili, dərslərin keyfiyyətinin qiymətləndirilməsi.

**2.7.10.** Tədris prosesinin təşkili, təlimin yeni texnologiyalarının tətbiqi, tələbə biliyinin qiymətləndirilməsinə dair məsələlər uzrə muəllimlərə metodiki seminarların, təlimlərin təşkil olunması.

**2.7.11.** Kafedralarda dərs yukunun muəllimlər arasında normativ qaydalara uyğun bolunməsinə nəzarət edilməsi, saathesabı qaydada kənardan cəlb olunan muəllimlərin peşəkarlığı ilə bağlı tovsiyələr verilməsi.

**2.7.12.** Semestr imtahanlarını kecirmək ucun tərtib olunmuş biletlərin təhlilinin aparılması, onların tədris olunan kursu tam əhatə etməsinin, sualların anlaşılan və konkret olmasının muəyyənləşdirilməsi.

**2.7.13.** Tədris və tədris-metodiki nəşrlərin (dərslik, dərs vəsaiti və s.) əlyazmalarının muzakirəsinin təşkil edilməsi və nəşrə tövsiyyə edilməsi.

**2.7.14.** Tələbələrin dərslik, dərs vəsaitləri və tədris-metodiki ədəbiyyatla bağlı məsələlərinin araşdırması, təkliflər verməsi və nəzarət edilməsi.

**2.7.15.** Təcrübələrin təşkili və kecirilməsi ilə bağlı təhlillərin aparması və təkliflər verməsi.

**2.7.16.** Fakultələrdə elmi-metodiki tədbirlərin kecirilməsi, tədris prosesinin maddi-texniki, metodiki və kadr təminatının qiymətləndirilməsi;

**2.7.17.** Elmi-metodiki konfransların,seminar, musabiqə və s. kecirilməsi.

**3. Elmi-metodiki Şuranın işinin təşkili**

**3.1.** EMŞ öz fəaliyyətini bütün tədris ili ərzində həyata keşirir.

**3.2.** EMŞ-ın ayda bir dəfə olmaqla iclası təşkil olunur. Uzvlərin yarıdan şoxu iştirak etdikdə iclas səlahiyyətli sayılır.

**3.3.** Şuranın işinin təşkilinə və fəaliyyət planının icrasına nəzarəti Şuranın sədri, sədr

olmadıqda isə sədr müavini həyata kecirir.

**3.4.** İclaslarda qərarlar iştirak edən EMŞ uzvlərinin sadə səs coxluğuna əsasən acıq səsvermə yolu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrin (sədr olmadığı halda müavinin) səsi həlledici olur.

**3.5.** Şuranın iclasları protokollaşdırılır.

**3.6.** EMŞ uzvlərinin iclaslarda iştirakı məcburidir. Şura iclaslarında mütəmadi iştirak etməyən üzv sədrin təqdimatına əsasən Elmi Şura tərəfindən tərkibdən xaric edilir. Üzrlü səbəbdən iclasda iştirak edə bilməyən üzv bu barədə EMŞ-ın sədrinə (olmadıqda muavinə) məlumat verməlidir.

**4. Yekun müddəalar**

**4.1.** Bu əsasnamə BSU-nun rektoru tərəfindən imzalandığı gündən quvvəyə minir.

**4.2.** Hər fakültənin tərkibində yaradılmış Fakültə Metodiki Qrup bu əsasnamə əsasında öz əsasnaməsini hazırlayıb fakültə Elmi Şurasında təsdiq etdirir. Fakultə Metodiki Qruplar hər tədris ilinin sonunda BSU-nun EMŞ-na hesabat verir.

**4.3.** Bu əsasnaməyə dəyişikliklər və əlavələr BSU Elmi Şurasının və Rektorunun qərarı ilə aparıla bilər.

**BSU-nun Tədris məsələləri üzrə prorektoru: Cahangirov F.F.**